Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RIIB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN

№ 14 NOYABR 2020

# BULLİNQ NƏDİR VƏ UŞAQLAR BULLİNQƏ NECƏ MƏRUZ QALIR?



Bullinq bir uşağın və ya bir qrup uşağın başqa bir uşağa qarşı bilərəkdən dəfələrlə nümayiş etdirdiyi qərəzli ve aqressiv davranış formasıdır. Bullinq özünü müxtəlif formalarda – uşaq barədə şayiələr yaymaqla, uşağa hədə-qorxu gəlməklə, uşağa qarşı fiziki güc tətbiq etməklə və ya şifahi təhqirlərə yol verməklə, uşağı ümumi qrupdan kanarlaşdıraraq ayrı-seçkilik salmaqla və ya uşağı birbaşa va ya dolayı incitmək üçün istənilən digər hərəkətlərə və ya əməllərə yol verməklə özünü büruzə verə bilər. Bullinq başqa mənfi davranış və xoşagəlməz əməllərdən 3 səciyyəvi xüsusiyyəti ilə fərqlənir:

- qəsdən törətmə
- təkrarlanma
- güc bərabərsizliyi

## UŞAĞIN BULLİNQƏ MƏRUZ QALMAĞININ ƏLAMƏTLƏRİNƏ MİSAL OLARAQ BUNLARI GÖSTƏRMƏK OLAR:







1. Bədəndə kəsik və ya qançır kimi fiziki əlamətlər;
2. Məktəbə getmək yaxud sosial tədbirlərdə iştirak etmək həvəsinin olmaması;
3. Şəxsi əşyalarını tez-tez itirməsi və yoxa çıxması;
4. Özünü tənha hiss etməsi barədə şikayətlər;
5. Davranışında aşkar mənfi dəyişikliklər yaxud da bir qayda olaraq istifadə etdiyi marşrutdan və s. imtina etməsi;
6. Aqressivlik va ya düşməncəsinə davranış;
7. Tibbi səbəblər olmadan fiziki ağrılar hiss etməsi;
8. Başqalarına, məsələn bacı – qardaşına qarşı bullinq etməsi;
9. Təlim nailiyyətlərinin azalması və fikrini cəmləyə bilməməsi;
10. Əvvəllər narahat olmadığı məsələlər barədə şikayətlənməyə başlaması.

*Sadalanan bu əlamətlərdən hər hansı birini övladınızda görürsünüzsə, məsələyə müdaxilə etməyiniz tövsiyə olunur.*

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burda ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# VALİDEYNLƏR ÜÇÜN TÖVSİYƏLƏR:

Övladı bullinqə məruz qalan valideynlərin aşağıdakı məsləhətlərə əməl etmələri tövsiyə olunur:

1. Övladınızı diqqətlə və səbirlə dinləyin. Açıq danışdığına görə ona təşəkkür edin və diqqətinə çatdırın ki, o, bunu etməklə düzgün və cəsarətli bir addım atıb;
2. Övladınızın danışdıqları sizi qorxutsa da, onun hisslərinə şəfqətlə və anlayışla yanaşın. Uşağınız qəzəbli olduğunuzu hiss etdikdə açıq danışmaqdan çəkinə bilər;
3. Övladınızı mühakimə etmədən və qınamadan dinləyin;
4. Suallar verərək problem və bullinq törədən uşaqlar haqqında daha ətraflı məlumat əldə edin;
5. Övladınızı əmin edin ki, siz birgə bu problemin həll yolunu tapacaqsınız. Bunun üçün müəllimə və məktəb rəhbərliyinə məlumat verilməli və həmin uşağı tapmaqla müvafiq tədbirlər görməlisiniz;
6. Bu müddət ərzində övladınızı və hadisələrin gedişini nəzarətdə saxlayın;
7. Yaranmış problemin övladınıza ciddi psixoloji təsir göstərdiyini hiss etdikdə uşaq psixoloquna müraciət edin.

*Bullinq haqqında məlumat və tövsiyələr UNICEF tərəfindən tərtib edilmiş kitabça əsasında hazırlanmışdır.*



# İBTİDAİ TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ

## *FİNLANDİYA TƏCRÜBƏSİ*

*Bülletenimizin noyabr buraxılışında sizinlə ibtidai siniflərdə qiymətləndirmənin aparılması ilə bağlı Finlandiyanın təcrübəsini bölüşürük.*

Finlandiyanın ibtidai təhsilində müəllimlər və şagirdlər imtahan ilə yüklənmirlər. Hər 5 ildən bir hər məktəb bir mövzu üzrə təlim nəticələrinin milli nümunədə qiymətləndirilməsinə daxil edilir. Müəllimlər öz məktəblərinin nəticələri barədə informasiya əldə edirlər, lakin bu nəticələr dərc olunmur və hətta məktəblər bir-biri ilə müqayisə də olunmur.

İbtidai təhsil dönəmində şagirdlər ortaq cəhətlərinə uyğun qruplaşdırılmır və onlar əsasən qarışıq qruplarda təhsil alırlar. Bütün şagirdlər üçün eyni hədəflər müəyyən olunsa da, İbtidai Təhsil Aktı və əsas kurikulum məktəblərdən müxtəlif pedaqoji vasitələrdən istifadə edərək şagirdlərin fərdi ehtiyaclarını və öyrənmə yollarını nəzərə almağı və bütün şagirdlərin təlim prosesini dəstəkləmək məqsədilə tədris məzmununun uyğunlaşdırılmasını tələb edir. Fərdi tədris planlarını hazırlaya bilmək üçün müəllimlərdən bütün şagirdlərin güclü tərəfləri və ehtiyaclarını müəyyən etməsi gözlənilir. Son illərdə, müxtəlif təlim mühitlərinin yaradılması, eləcə də, təşviqedici və interaktiv bir atmosferin formalaşdırılmasına böyük diqqət ayrılmışdır.

İbtidai təhsilə erkən müdaxilə dedikdə, müəllimlərin təlimdə qarşılaşdığı problemləri müəyyən edən kimi onu dərhal həll etməsi nəzərdə tutulur. Təqribən 2% olmaqla birinci və ya ikinci sinfi təkrarlayanlardan başqa, şagirdlər çox nadir hallarda sinifdə qalırlar; məktəbi tərketmə faizi isə 0.5%-dən aşağıdır. Hər kəsin ən azından ibtidai təhsili tamamlaması üçün sistematik şəkildə geniş miqyaslı tədbirlər kompleksi həyata keçirilir.

# MÜƏLLİM TƏCRÜBƏSİ

## AYNUR MÖVLANOVA

*Quba rayonu Rustov tam orta məktəbi*



Müəllimlik fəaliyyətimdə fərqli xüsusiyyətlərə malik şagirdlərlə işlədim. Hər bir şagird mənim üçün həmişə xüsusi olub. 2020-2021-ci tədris ilində birinci sinifdə tədrisə başlamışam. Lakin dərs ilinin əvvəlində çox maraqlı bir təklif aldım. Bir ana yaxınlaşıb "istəyirəm ki, övladıma siz dərs deyəsiz" dedi. Böyük məmnuniyyətlə, deyib yaşını soruşdum. Cavab məni təəccübləndirdi; 9 yaşı var. Niyə indiyə qədər məktəbə gəlmədiyinin səbəbini soruşduqda valideyn izah etdi: "Övladımın adı Nihaldır. 9 yaşı var. Lakin mənim qızım fərqlidir. İki yaşına kimi sağlam olub, keçirdiyi xəstəlik nəticəsində Hidrosefaliya (əqli inkişafın ləngiməsi) diaqnozu qoyulub. İstəyirəm şagird statusu alsın. Cəmiyyətə adaptasiya olsun. İstəyirəm onun müəllimi siz olasınız."

Mən həm müəllim, həm də anayam. Bir müəllim kimi hər bir uşağın təhsilinə dəstək olmaq mənim öhdəliyim, bir ana kimi isə qarşımda duran ananın arzusunu başa düşməkdir. Ona görə tərəddüd etmədən razılaşdım. Özümə əmin idim. Bu əminlik isə inklüziv təhsillə bağlı təlimdə iştirak etməyim ilə əlaqədar idi. Bu təlimdən bir çox unversal öyrənmə metodları əldə etdim ki, bu da əlilliyi olan uşaqların təhsili üçün müəllimlərə geniş imkanlar və ideyalar verir.

İlk dərs günü çox böyük iradə və əminliklə Nihalla dərsə başladım. Ona ilk dəfə toxunarkən, müəllimi olduğumu söyləyərkən Nihalın mənə sarılması məni çox duyğulandırdı. İlk dərsdə toxunmaqla əşyaların elastikliyini təyin etmək, anlamaq, rəngləri tanıması və rənglərə qarşı reaksiya Nihalın üzündə bir təbəssüm yaratdı. Dərslər mütəmadi davam edir. İnkluziv təlimdə öyrəndiyim bütün metodlardan istifadə edirəm. Hər gün yeniliklər öyrənən Nihal çox sevinir. Yeni sözlər, mahnılar, rəqəmlər sanki Nihalın həyatını daha da rəngarəng edir. İndi Nihal müəyyən qədər sözləri deyir, ətraf aləm haqqında təsəvvürü var, hərəkətlidir, sevinclidir. Ailə onun bu irəliləyişinə çox sevinir.

Mənim isə sevincim hədsizdir. Bu təcrübə müəllimlik fəaliyyətimə əlavə olunan nümunəvi uğurumdur. Eyni zamanda inkluziv təlimdə əldə etdiyim metodları əlverişli şəkildə həyata keçirməyimin bariz nümunəsidir.

---

# İNKLÜZİV TƏHSİL ÜZRƏ ESSE MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜƏYYƏN EDİLİB

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində tələbələr arasında "İnklüziv məktəb konsepsiyasının məktəblərdə tətbiqi və müəllimlərin bu prosesə töhfəsi" mövzusunda esse müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqəyə təqdim edilən 50-dən çox esse arasından şərtlərə cavab verən - ideya, məzmun, üslub və tərtibat baxımında fərqlənən 3 ən yaxşı yazı qalib seçilib. Münsiflər heyəti tərəfindən seçilən 3 ən yaxşı essenin müəllifləri Bakı Dövlət Universiteti, Qazax filialının "Sosial iş" ixtisasının tələbəsi Nurlan Quliyev, ADA universitetin "Beynəlxalq münasibətlər" ixtisasının Bəxtiyar Salmanov və Qərbi Kaspi Universitetinin "Turizm və otelçilik" ixtisasının tələbəsi Sabir Əliyev sertifikat və hədiyyələrlə mükafatlandırılıb.

Xatırladaq ki, esse müsabiqəsi inklüziv təhsil sahəsində aparılan ictimai maarifləndirmə tədbirlərinə dəstək məqsədi ilə keçirilib.

## ƏLAQƏ VASİTƏLƏRİ

**WEBSITE:**
www.inkluzivtehsil.az

**TELEFON:**
012 505 01 50

**E-POÇT:**
info@ie-rt.az

**FACEBOOK:**
@inkluzivtehsilAzerbaycan

**İNSTAGRAM:**
@inkluzivtehsil